“Təsdiq Edirəm”
Azərbaycan Basketbol
Federasiyası Baş katibi

________________ Vüqar Əzimov

“___” ____________2023 cü il

# BASKETBOL ÜZRƏ KİŞİLƏR ARASINDA
# “AZƏRBAYCAN KUBOKU 2024”
# ƏSASNAMƏSİ

Bakı şəhəri 2023

**Bu Əsasnamə Beynəlxalq Basketbol Federasiyaları Assosiyasının (FİBA) qaydalarına və ölkə ərazisində yarışların keçirilmə qaydaları ilə bağlı Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 21 dekabr 2022-ci il tarixli 33 nömrəli Kolleqiya qərarı ilə təsdiq edilmiş Texniki Reqlamentə uyğun tərtib edilmişdir.**

**1.MƏQSƏD: AZƏRBAYCAN KUBOKU**

1.1 Ölkə kubokunun qalibini müəyyən etmək.

1.2 Azərbaycanda basketbolu təbliğ etmək, onu inkişaf etdirmək. Basketbolu fiziki tərbiyə vasitəsi kimi təbliğ və ondan istifadə etmək. Sağlamlığın möhkəmləndirilməsi və asudə vaxtları səmərəli keçirilməsində basketboldan istifadəni vətəndaşlar arasında təbliğ etmək. Daha çox insanın basketbol oyunlarına tamaşaçı qismində cəlb etmək. Əhalinin bütün kateqoriyalarını oyunlara sövq etmək.

1.3Maksimum dərəcədə tamaşaçıları cəlb edəcək səviyyədə keyfiyyətli idman tədbirini təşkil etmək.

1.4Kubok yarışlarının müsbət imicini formalaşdırmaq və turnirin səviyyəsini hərtərəfli inkişaf etdirmək.

**2.ÖLKƏ KUBOKU YARIŞLARININ TƏŞKİLATÇISI VƏ İCRAÇISI.**

**Kubok yarışlarının keçirilməsinə ümumi rəhbərliyi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Basketbol Federasiyası həyata keçirir.**

2.1 Ölkə Kuboku oyunları Azərbaycan Basketbol Federasiya (ABF) tərəfindən təşkil edilir.

2.2. ABL Direktoru Ölkə Kuboku oyunlarının təşkilinə və keçirilməsinə rəhbərlik edir.

**3. YARIŞLAR**

3.1 2023/2024 mövsümündə ABL çempionatının Əsasnaməsini və Reqlamentinin tələblərini yerinə yetirən, lisenziyalaşdırma prosedurlarını düzgün yerinə yetirmiş və çempionatda iştirak etmək üçün lisenziya almış aşağıdakı klublar Kubok oyunlarına buraxılır:

**1. Xırdalan BK**
**2. Gəncə VTB BK**
**3. Cəlilabad BK**
**4. Neftçi İK Bakı**
**5. NTD İNDİGO Xaçmaz BK**
**6. Sabah BK Bakı**

**7. Sərhədçi BK**
**8. Şəki BK**
**9. Sumqayıt BK**
**10.XƏZRİBK**

3.2 Azərbaycan Kuboku üzrə yarışlar II mərhələdə keçirilir:
I mərhələ (qrup oyunları)
- püşk atma vasitəsilə komandalar 2 (iki) yarım qrupa bölünür;
-qruplarda komandalar I dövrədə mübarizə aparırlar;
II mərhələ (play off mərhələsi)
-qrup oyunlarının nəticələrinə görə yarımqruplarda birinci və ikinci yeri tutmuş komandalar yarımfinal oyunlarında qarşılaşırlar;
-yarımfinal cütlərinin qalibləri final oyununda Ölkə Kubokunun qalibini müəyyən edəcəklər;

## 4.YARIŞLARIN KEÇİRİLMƏ TARİXİ

4.1 Ölkə Kuboku uğrunda qrup oyunları 2024 cü ilin mart ayında, final oyunu isə aprel ayında Bakı şəhərində, Sərhədçi İdman Mərkəzində keçiriləcəkdir.
4.2 Ölkə Kuboku uğrunda oyunlar, ABL çempionatı Reqlamenti ilə tənzimlənir və ABL Əsasnaməsinin tələbləri ölkə kuboku yarışlarına da şamil olunur.
4.3 Ölkə Kuboku oyunlarında hər bir komandanın heyətində eyni anda meydançada 3 (üç) Azərbaycan vətəndaşı və 2 (iki) əcnəbi oyunçu oyunda iştirak edə bilər.
4.4 Komandalar Kubok oyunlarında hər oyun üçün 12 (on iki) oyunçunun (altı Azərbaycan vətəndaşı və altı əcnəbi oyunçu) xidmətindən istifadə edə bilər.

*Qeyd: Ölkə Kubok oyunlarında Nizam İntizam Qaydalarının pozulması halları ABL 2023-2024 Texniki Reqlamentinə uyğun həll edilir.*